# Azərbaycan xalqı erməni vəhşiliyini və faşizmini heç vaxt unutmamalıdır

***Dövlətimizin başçısı İlham Əliyev Hacıqabul rayonuna səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində bir daha Azərbaycanın Zəfərindən bəhs edərək bu məqamı diqqətə çatdırmışdır ki, biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq***

**44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın Qələbəsi regionda vəziyyəti dəyişdi. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, müharibə bitib, növbəti səhifəyə keçmişik. Ağrını, yaraları heç vaxt unutmayacağıq. Yaralar heç vaxt sağalmayacaqdır. Qəhrəmanlarımızı heç vaxt unutmayacağıq. Dövlətimizin başçısı İlham Əliyev bununla yanaşı bildirir ki, biz gələcəyə baxmalıyıq. Əraziləri yenidən qurmalıyıq. Artıq bu işlərə başlanılıb. İnfrastruktur layihələri, şəhər planlaması və yenidənqurmanın bir çox digər mühüm elementləri artıq icra olunmaqdadır.**



Cənab İlham Əliyevin aprelin 20-də Hacıqabul rayonuna səfəri zamanı bir sıra sosial obyektlərin açılışında iştirakı, həmçinin Azərbaycan Televiziyasına müsahibəsində Hacıqabul rayonunun nümunəsində ümumi regionların inkişaf mənzərəsini yaratması və sair kimi mühüm məqamlar bir daha bu reallığı təsdiqlədi ki, “güclü dövlət, yüksək rifah” prinsipi dövlətimizin həyata keçirdiyi siyasətin əsasında dayanır. İşğaldan azad edilmiş ərazilərimizdə də iqtisadiyyatın şaxələndirilməsi üçün addımların atılacağından bəhs edən ölkə Prezidenti diqqəti hazırkı mərhələyə- ərazilərimizin minalardan təmizlənməsinə, eyni zamanda, infrastruktur layihələrinin icrasına yönəldərək bildirmişdir ki, burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir: “Halbuki biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Sadəcə olaraq, bu xəritələri verməmək Ermənistanın növbəti hərbi cinayətidir. Müharibə başa çatandan sonra mina xəritələri verilmədiyi üçün 100-dən çox ancaq mülki vətəndaş yaralanıb və həlak olub. Bu istiqamətdə işlər davam etdiriləcək. Yeni avadanlıq alınır, Minatəmizləmə Agentliyinin ştat vahidlərinin artırılması ilə bağlı Sərəncam verilib. Çalışacağıq, bütün gücləri̇mizi maksimum səfərbər edək ki, minatəmizləmə işləri sürətlə getsin. Eyni zamanda, həm Türkiyədən, həm Rusiyadan bu sahədə kömək göstərən hərbçilər də bu işlərlə məşğuldurlar.”

Reallıq budur ki, 30 illik danışıqlar ərzində Ermənistanın yalnız bir məqsədi olub - danışıqları sonsuz və faydasız etmək. Bu da təcavüzkara işğal olunmuş ərazilərin tarixi, mədəni və dini mənşəyini dəyişməyə cəhd etmək imkanını verdi. Bütün çıxışlarında, xalqa müraciətlərində, müsahibələrində ermənilərin dini abidələrimizi, məscidləri dağıtmasına, burada donuz saxlamalarına yönəldən cənab İlham Əliyev bunun təkcə azərbaycanlılara deyil, bütün müsəlmanlara qarşı təhqir olduğunu bildirir. O da məlumdur ki, Şuşada bir məsciddən başqa bütün məscidlər tamamilə dağıdılıb. Həmin yarımçıq dağıdılmış məsciddə İslama aid mədəni və dini məkanları qoruduqlarını nümayiş etdirmək adı altında bəzi təmir işləri görməyə çalışmışdılar. Ermənilər işğal edilmiş ərazilərdə 70 məscidi dağıdıblar. Bu məscidlərdən birində təmir işləri aparmağa çalışmaq, sadəcə olaraq, onların sanki özlərini tolerant olduqlarını, müsəlman mədəniyyətinə, müsəlmanların hisslərinə hörmət etdiklərini nümayiş etdirmək cəhdi idi.

Ermənilər belə hiyləgər siyasətləri ilə daim özlərini dünyaya “yazıq, məzlum, döyülən, əzilən” millət kimi təqdim ediblər. Amma əsl simaları 44 günlük Vətən müharibəsi dövründə dünya ictimaiyyətinə bəlli oldu. Bir məscidi saxlamaqla tolerant olduqlarını qəbul etdirmək niyyətində olan ermənilər görəsən məscidlərimizdə donuz saxlamalarını necə əsaslandıracaq və havadarları onların başına sığal çəkərkən hansı bəhanəni səsləndirəcəklər? Amma real olan budur ki, Ermənistana dəstək verən dövlətlər müharibə qurtaran kimi dərhal erməni xalqının dini abidələrinin qorunması ilə bağlı fikirlər səsləndirməyə başladılar. Amma unutdular ki, Ermənistandan fərqli olaraq Azərbaycan reallıqda tolerant ölkədir. Ölkəmizdə bütün dinlərin, millətlərin nümayəndələri dostluq, mehribanlıq şəraitində yaşayır. Hansısa dövlətin, beynəlxalq təşkilatın diktəsi ilə deyil, öz tolerant, multikultural dəyərlərin qorunması siyasətinə uyğun olaraq bütün xalqların abidələrini qoruyur və dünya da bunu bilir. Dövlətimizin başçısı İlham Əliyev 2016-cı ili “Multikulturalizm İli”, 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməklə, eyni zamanda, ölkəmiz 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi ilə dünyaya birlik, həmrəylik, sülh, əmin-amanlıq mesajını ünvanlamışdır.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində də bu məqamı qeyd etmişdir ki, biz bu müharibədə təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, həm də erməni faşizmini məhv etmişik. Bu, bizim təkcə Azərbaycan xalqı qarşısında yox, dünya qarşısında tarixi missiyamızdır. “Bu gün Ermənistanda bəzi revanşist qüvvələr baş qaldıranda bilməlidirlər ki, onların başı lazım olarsa, istənilən zaman əziləcəkdir” söyləyən Müzəffər Ali Baş Komandan bildirir ki, biz imkan verə bilmərik ki, erməni faşizmi yenə baş qaldırsın. Biz imkan verə bilmərik, Ermənistan yenə də öz ordusunu o vəziyyətə gətirib çatdırsın ki, bizə hansısa bir təhdid olsun: “Biz əgər mümkün olan təhdidi təsbit etsək, dərhal onu məhv edəcəyik. Bunu hər kəs bilməlidir - həm Ermənistan, həm də onun havadarları. Çünki bu, milli müdafiədir, milli təhlükəsizlik məsələsidir. Bununla paralel olaraq, biz əməkdaşlığa da hazırıq - baxmayaraq ki, Ermənistan azərbaycanlılara qarşı dövlət səviyyəsində soyqırımı törətmişdir. Baxmayaraq ki, bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, biz gələcəyə baxmalıyıq.”

Əvvəldə də qeyd etdiyimiz kimi, erməni vəhşiliyini heç vaxt unutmayacağıq. Bu gün Ermənistanda böyük səs-küyə səbəb olan Hərbi Qənimətlər Parkının yaradılmasını da əsas məqsəd Azərbaycan xalqının bu vəhşiliyi heç vaxt unutmamasıdır. Park bir təbliğat vasitəsidir. Bir tərəfdən Azərbaycan Ordusunun qəhrəmanlığını, şücaətini əks etdirir, digər tərəfdən isə ermənilərin əsl simasının, 30 ilə yaxın dövrdə işğalçıya maddi və mənəvi dəstək verib münaqişənin həlli prosesinin uzanmasına səbəb olan dövlətlərə ünvanlanan mesajların təqdimatıdır. Azərbaycan Ordusunun məhv etdiyi yaxud qənimət kimi götürdüyü hərbi texnikanın, silah-sursatın statistikasını cənab İlham Əliyev bütün müsahibələrində diqqətə çatdırır. Təbii ki, buna səbəb axtarılan sualın bugünədək cavabsız qalmasıdır. 44 günlük Vətən müharibəsi dövründə Türkiyəni üçüncü tərəf kimi müharibəyə cəlb edib bundan öz məqsədli planlarını həyata keçirmək üçün bir vasitə kimi bəhrələnməyə çalışan Ermənistan hakimiyyəti niyə bugünədək hədiyyə kimi aldığı silahların kim tərəfindən verildiyini açıqlamır? Ermənistan kimi kasıb bir ölkənin belə yüksək məbləğdə hərbi texnika alması heç zaman inandırıcı görünə bilməz. Vətən müharibəsinin getdiyi dövrlərdə Azərbaycan Ordusu bir tərəfdən ermənilərin hərbi texnikasını məhv edir, yaxud qənimət kimi götürür, amma yenə də silahlar ortaya çıxır. Elə bu silahlandırmanın nəticəsidir ki, Ermənistanın baş naziri Azərbaycan ərazisinə “İsgəndər-M” raketini atdıqlarını etiraf edir, Rusiya rəsmiləri onun bu etirafını inkar edərək belə bir addımın atılmadığını, ümumiyyətlə Ermənistanda belə bir raketin olmadığını bildirirlər. Elə bu açıqlamanın özü müxtəlif fikirlərin yaranmasına rəvac verir. Ən əsası maraqlıdır, Ermənistanın hansı silahlara malik olub-olmadığını Rusiya tərəfi haradan bilir? Artıq geniş şərhə ehtiyac görmürük. Cənab İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində “Hərbi Qənimətlər Parkının açılışında Siz Azərbaycan ərazisinə atılan “İsgəndər-M” raketi barədə danışdınız və dediniz ki, bununla bağlı Rusiyadan cavab gözləyirsiniz. Bununla bağlı bir cavab verildimi” sualını cavablandırarkən bildirmişdir ki, Rusiya Müdafiə Nazirliyi Azərbaycan Müdafiə Nazirliyinin məktubuna cavabında göstərmişdir ki, Rusiya tərəfi ballistik raketlərin buraxılmasını müəyyən etməmişdir. Bu, məktubumuza tam cavab deyil. Çünki məktubumuzda əsas sual ondan ibarət idi ki, ixrac üçün qadağan edilən və ölümcül “İsgəndər-M” raketləri Ermənistanın əlinə necə düşüb? “Bax, bu suala bizə cavab verilməlidir. Biz bu cavabı gözləyirik, Azərbaycan xalqı gözləyir. Biz bir çox məsələləri özümüz üçün aydın etmişik. Biz bilirik bu raketlər nə vaxt və nə üçün atılıb.” söyləyən dövlətimizin başçısı bildirir ki, bu raketləri bizə atan Ermənistandan və Rusiyadan rəsmi cavab verilməlidir. “İsgəndər-M” raketlərinin Şuşa şəhərində tapılması və bu məsələ ilə bağlı bu günə qədər tam cavabın verilməməsi, əlbəttə ki, Azərbaycan xalqında və Azərbaycan rəhbərliyində haqlı olaraq təəssüf hissi yaradır. Strateji tərəfdaşlar arasında münasibətlər səmimi olmalıdır. Azərbaycan dövləti bütün strateji tərəfdaşları qarşı münasibətdə səmimi olub, həmişə öz sözünün üstündə durub, sözünü yerinə yetirib. “İsgəndər-M” raketlərinin Hərbi Qənimətlər Parkında nümayiş etdirilməsi onun Ermənistanda varlığına şübhə yeri qoymur, Rusiya tərəfinin bəhanələr axtarışına çıxmasına ehtiyac duymur.

Azərbaycan xalqı ermənilərin zaman-zaman havadarlarının dəstəyi ilə törətdikləri soyqırımı və deportasiya siyasətini unutmur və unutmayacaq. Ermənilərin 44 günlük İkinci Qarabağ müharibəsinin gedişi dövründə döyüş meydanında məğlubiyyətlərini həzm edə bilmədikləri üçün iki dəfə Gəncədə, sonra Bərdədə və Tərtərdə törətdikləri terror aktları yaxın zamanların vəhşilikləridir. Azərbaycan illərdir belə vəhşilərlə üz-üzə olub. İşğaldan azad edilmiş torpaqlarımızda ermənilərin törətdikləri vəhşiliklər dünyanın gözü qarşısındadır. Amma dünya hələ də susmaqda, seyrçi mövqeyinə davam etməkdədir.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi, bizim əsas rəqibimiz zamandır. Xalqımız tam əmindir ki, cənab İlham Əliyev hansı məqamda nəyi necə etməyi bilir və istər danışıqlar masasında, istərsə də hərb meydanında bütün addımlarını ən xırda detalınadək hesablayaraq atır. Dövlətimizin başçısı İlham Əliyev xalqa müraciətlərində də bildirirdi ki, düşmənə layiq olduğu yeri yumruğumuzla göstərdik. Bu yumruq təkcə düşmənin başına vurulan zərbə deyil, həm də birliyimiz, həmrəyliyimizdir.

**Yeganə Əliyeva,**
***“İki sahil”***

Pr

i

erir ki, Sərəncama əsa-sən
iki min nəfər əhalinin yaşa-dı
BINASININ TIKINTISINƏ ... OLARAQ
yaşayış məntəqəsini bilməs